# 700 bal toplayan tələbələr imtahan sessiyasını hansı nəticələrlə başa vurublar?

2014-2015-ci tədris ilində ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərərək 700 bal toplayan abituriyentlər bu gün müxtəlif ali məktəblərdə təhsil alırlar. Bir müddət öncə oxuculara təqdim etdiyimiz bu tələbələri həmişə diqqətimizdə saxlamağa çalışırıq. Payız semestrinin imtahan sessiyası artıq başa çatıb. Həyəcan dolu anlarını yaşayan tələbələr artıq ilk sınaqdan çıxıblar. Görəsən, 700 bal toplayan tələbələr ilk imtahan sessiyasını necə başa vurublar? Bu suala aydınlıq gətirmək məqsədilə onların bir neçəsi ilə əlaqə yaratdıq.



**Əli İsgəndərov,**
*"ADA" Universitetinin dövlət və beynəlxalq münasibətlər fakültəsinin I kurs tələbəsi:*

- İmtahan sessiyasını yüksək nəticələrlə başa vurdum. Universitetdə təhsilin ilk mərhələsi ingilis dilində olur. İngilis dilinin qrammatikası, danışıq dili, dinləmə, oxuyub-yazmaq üzrə imtahan verdim. Nəticədə ən yüksək "A" qiyməti aldım. Çalışıram ki, qəbul imtahanlarında topladığım yüksək bala görə layiq görüldüyüm Prezident təqaüdçüsü adını doğruldum. Bunun üçün universitetimizdə hər cür şərait var. Yaradılan imkanlardan səmərəli istifadə etməyə çalışıram.



**Teymur İsmixanov,**
*"ADA" Universitetinin kompüter elmləri fakültəsinin I kurs tələbəsi:*

- Payız semestrinin imtahan sessiyasını əla qiymətlərlə başa vurmağı qarşıma məqsəd qoymuşdum. Mən həm qəbul imtahanlarında topladığım 700 balı, həm də ölkə rəhbərinin sərəncamı ilə Prezident təqaüdünə layiq görüldüyümü doğrultmalı idim. Bunun üçün çox çalışmaq lazım gəldi. Uğurlarımın mənə verdiyi stimul ruh yüksəkliyimi artırdı və bütün imtahanlardan "A" qiyməti aldım. Qarşıdakı imtahanlarda da yüksək nəticələr göstərəcəyimə söz verirəm.



**Lalə Novruzova,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I kurs tələbəsi:*

- İlk semestri uğurla başa vurdum. 5 imtahan verib "A" qiyməti aldım. Bu da ən yüksək qiymət deməkdir. Dərslərimiz maraqlı keçir. Çox savadlı və qayğıkeş müəllimlərimiz var. Akademiyanı əla qiymətlərlə bitirəcəyimə əminəm. Çalışqan və prinsipial olmağım bunu deməyə əsas verir. Gələcəkdə savadlı, öz ixtisasını sevən bir hüquqşünas olmalıyam. Bu, mənim sadəcə arzum deyil, həm də yeganə məqsədimdir.



**Xəyalə Əfəndiyeva,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I kurs tələbəsi:*

- İlk imtahan sessiyası mənim üçün uğurlu oldu. Verdiyim 5 imtahanın hər birindən "A" qiyməti aldım. Orta məktəb müəllimlərimlə görüşüb imtahan təəssüratlarımı onlarla bölüşəcəyəm. İmtahanlardan üzüağ çıxdım. Prezident təqaüdçüsü adını qorumaq üçün sona qədər səylə çalışacağam.



**Əli Allahverdiyev,**
*Qafqaz Universitetinin mexanika mühəndisliyi fakültəsinin I kurs tələbəsi:*

- Mənə göstərilən etimadı doğrultmaq üçün səylə çalışdım, nəticədə 95 bal topladım. Universitetdə yüksək təhsil almaq üçün hər cür şərait var. Kompüter, kimya, mexanika, fizika və digər ixtisaslar üzrə laboratoriyalar tələbələrin ixtiyarına verilib. Biz tələbələrə təkcə əzmkarlıqla çalışmaq qalır. Zəhmət çəkməliyik ki, sevindirici nəticələr də qazanaq.



**Kamran Abdulrəhimov,**
*Bakı Dövlət Universitetinin hüquq fakültəsinin I kurs tələbəsi:*

- Payız semestrinin imtahan sessiyasına mükəmməl hazırlaşmışdım. 6 imtahan verdim. Hamısından da "A" qiyməti aldım. Hüquq nəzəriyyəsi fənnindən verdiyim imtahan çox maraqlı idi. Ümumiyyətlə, mən bu elmi çox sevirəm. Sevinirəm ki, ilk semestri əla qiymətlərlə başa vurdum. Səylə çalışacağam ki, universiteti əla qiymətlərlə başa vurum.



**Firuz Abduyev,**
*Qafqaz Universitetinin kompüter mühəndisliyi fakültəsinin I kurs tələbəsi:*

- İmtahanları yüksək səviyyədə başa vurdum və 93 bal topladım. Ali məktəbdə ilk bilik sınağına çox yüksək əhvali-ruhiyyə ilə hazırlaşdığım üçün yüksək nəticələr əldə edəcəyimə inanırdım. Bu inamla imtahanlara qatıldım və uğur da qazandım.

**Sifai SƏFƏROVA,** *"Azərbaycan müəllimi"*